**Qərar № 16/121**

# "AZADLIQ-2015" siyasi partiyalar blokunun qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə birgə iştirak etmək məqsədilə Aydınlar Partiyası, Azadlıq Partiyası, Azərbaycan Xalq Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Böyük Azərbaycan Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Vətəndaş və İnkişaf Partiyası öz müvafiq orqanlarının qərarları ilə "AZADLIQ-2015 siyasi partiyalar bloku" (qısaldılmış adı "AZADLIQ-2015") adlı siyasi partiyalar bloku yaratmış və blokun emblemini müəyyən edərək qanunvericilikdə nəzərdə tutulmuş qaydada qeydə alınması üçün müvafiq sənədləri blokun səlahiyyətli nümayəndəsi 2015-ci il sentyabrın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin siyasi partiyalar blokunun qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 50.1-ci maddəsinə əsasən, siyasi partiyaların blokunu azı iki siyasi partiya yarada bilər. Seçki Məcəlləsinin 50.4-cü maddəsində göstərilən əsaslar olmadıqda siyasi partiyalar bloku həmin məcəllənin 50.2-ci, 50.3-cü maddələrində və Mərkəzi Seçki Komissiyasının "Siyasi partiyaların bloklarının qeydə alınması qaydaları haqqında Təlimatın"ın 1.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada və müddətdə qeydə alınmalıdır.

Seçki Məcəlləsinin 51.1-ci və 51.3-cü maddələrinə əsasən, siyasi partiyaların bloku Mərkəzi Seçki Komissiyasına özünün tam və qısa adı barədə məlumat, təsdiq edilməsi üçün isə öz emblemini təqdim edə bilər.

Göstərilən əsaslara görə "AZADLIQ-2015" siyasi partiyalar bloku qeydə alınmalı, təqdim edilmiş emblem həmin siyasi partiyalar blokunun emblemi kimi təsdiq edilməlidir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4, 19.14, 28.2, 28.4 və 50-52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə birgə iştirak etmək məqsədilə Aydınlar Partiyası, Azadlıq Partiyası, Azərbaycan Xalq Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Böyük Azərbaycan Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Vətəndaş və İnkişaf Partiyası tərəfindən yaradılmış "AZADLIQ-2015 siyasi partiyalar bloku" (qısaldılmış adı "AZADLIQ-2015") siyasi partiyalar bloku qeydə alınsın.
2. "AZADLIQ-2015" siyasi partiyalar blokunun emblemi təsdiq edilsin.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*04.09.2015*